








## Həyat, mübarizə və uğur fəlsəfəsinin

# Zəfər zirvəsi

*Həqiqətin gözünü bağlamaq, qolların bükmək mümkün deyil, çünki toxum kimi cücərib öz yerini tutur, ədalətə həmdəm olur. Xalqımızın oğurlanan həqiqətini və ədalətini geri qaytarmaq üçün 30 il mübarizə aparıldı, bağlı qapılar arxasında ermənipərəstlərin "işğalla barışın, torpaqlardan əlinizi üzün" deyən nakəslərin qarşısında mərdi-mərdanə dayanan, o kirli fikirləri yaxına buraxmayan, təmkini, məharəti, səriştəsi, bacarığı ilə bütün iyrənc planları pozan, Azərbaycanın halal haqqını tələb edən Liderimizin qətiyyəti polad kimi əyilməz idi. Həqiqət belədir ki, Azərbaycanın qəlbinə yadellilərin fitvası ilə sancılmış erməni məsələsi iki əsrdən çox davam edirdi, daşnak epidemiyası virus kimi torpaqlarımızı zəhərləyir, ermənilər tərəfindən törədilən deportasiya, işğal, soyqırımı, məcburi köçkünlük xalqımızın taleyinə çox ağır zərbələr vururdu.*

Faciələr bizi sarsıtsa da, yıxılmağa qoymayan inam oldu, ulu öndərin hakimiyyətə qayıdışı üzləşdiyimiz haqsızlıqlara son qoydu, xalq təsəlli tapdı, dahi şəxsiyyət Azərbaycanı bütün bəlalardan xilas etdi, ömür vəfa etmədiyi üçün yerdə qalan məsələləri, Qarabağın azad edilməsini oğluna vəsiyyət etdi. Həmin vaxtlarda sifətini gizlədən haylar erməni faşizminin və xuntanın torpaqlarımızda törətdikləri vəhşiliyə əl çaldılar, azərbaycanlıların evlərini uçurub törətdikləri vəhşiliyə tost dedilər, Şuşada Cıdır düzündə yallı getdilər. Elə zənn etdilər ki, bu işğal əbədi davam edəcək. Havadarlarına arxalanaraq meydan sulayırdılar, zor dilində danışır, yeni əraziləri işğal etməkdən dəm vururdular. Münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupu və digər beynəlxalq təşkilatlar tərəfkeşlik edir, torpaqlarımızda törədilən erməni vəhşiliyinə göz yumur, işğalı dondurmağa cəhd edirdilər. Bütün bu oyunlara otuz ilə yaxın səbir edən, dözüm göstərən Azərbaycan haqqı və ədaləti bərpa etmək üçün ardı-arası kəsilməyən erməni silahlı qüvvələrinin hücumlarını dayandırmaq üçün əks-hücum əməliyyatlarına başladı. Nəhayət, separatçılar və onların ətrafında olan haylar üçün əcəl zəngi çalındı, dəmir yumruq işə düşdü. Qarabağda və Şərqi Zəngəzurda qazanılan tarixi Qələbə və şanlı Zəfər Azərbaycanda yaşayan bütün millətlərin sarsılmaz birliyi, qardaşlığı, döyüş ruhu və düşmənə nifrət hissi ilə əldə edildi. Tarixi qələbə qazanıldı, qədim ərazilər erməni əsarətindən xilas edildi, şəhid qanı hopmuş torpaqlar indi lalezara çevrilir, artıq bu yerlərdə güllə yox, güllər açır. Azərbaycan bölgədə sülhün, əmin-amanlığın, sabitliyin, inkişafın, tərəqqinin, əməkdaşlığın mərkəzinə çevrilib, bir çox beynəlxalq tədbirlərin işğaldan azad edilən, həm tarixi, həm də modern şəhərsalma üslubunda bərpa edilən, yenidən qurulan Şuşa, Laçın, Cəbrayıl, Ağdam, Zəngilan, Xankəndi şəhərlərində keçirilməsi hər birimizdə qürur hissi yaradır. İlahi, bu nə möhtəşəm an idi, göy üzü də, yer üzü də, qarsalanmış torpaqlar da, perik düşən ruhlar da sevindi, bu səs qeybdən gəlmirdi, möcüzə də deyildi. Bu səs Xankəndidən gəlirdi, Qarabağın ürəyindən gəlirdi, haqdan gəlirdi, qətiyyətin, fədakalığın yaratdığı qələbələrin təntənəsindən gəlirdi. Bu adi səs deyildi, bu Qarabağ Fatehinin, Sərkərdəmizin, Liderimizin düz 20 il sinəsinin altında çırpınan böyük ürəyinin himni idi, 30 ildən sonra Xankəndidə çalındı. Tamamilə yer üzündən silinmiş Ağdamın, Füzulinin, Cəbrayılın, Zəngilanın və digər ərazilərimizin qüruru özünə qaytarıldı, yeni bir Qarabağ və Şərqi Zəngəzur qurmaq uğrunda indi, sözün əsl mənasında, mücadilə aparılır. Xankəndidən dünyaya səslənən Liderimiz bildirdi ki, iyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq.

Prezidentimizin Xankəndidən çıxışı həyat, mübarizə və uğur fəlsəfəsini bütün dolğunluğu ilə nümayiş etdirdi. Uğur, qələbə, fədakarlıq, xalq məhəbbəti düsturunun cavabı Azərbaycanın öz lideri İlham Əliyevlə fəxr etməyindədir.

Artıq Qarabağda və Şərqi Zəngəzurda ruhun bədənə qayıdışı kimi geri dönüş başlayıb. Bu təntənəyə hazırlaşan Ağdərə əzəmətli dağların əhatəsində yerləşən, ərazisindən Tərtər və Xaçın çayları keçən, zəngin təbii sərvətləri, mineral bulaqları ilə məşhur olan, qədim alban abidələrinin torpaqdan baş qaldırdığı bu yaşayış məskəni yurdumuzun ən gözəl guşələrindən biridir. Ağdərədə təbiətin yaratdığı gözəllik insana ruh verir, Tərtər çayının yatağı boyunca uzanan gen dərələrin, dağların belinə qurşaq kimi dolanan meşələr, sıldırım qayalar, sözün əsl mənasında, heyrət doğurur. Cənnət kimi adamı ovsunlayan Ağdərə canlı təbiət abidəsidir. Adı da təbiətin bu nadir gözəlliyini, duman bələnmiş ağ dərələri ifadə edir. Çox qiymətli və zəngin meşə örtüyü Ağdərəyə xüsusi gözəllik verir. Keçmiş sovet dönəmində Ağdərə qabaqcıl kənd təsərrüfatı rayonu olub və burada üzümçülük, taxılçılıq, tütünçülük və heyvandarlıq aparıcı sahə olub. 1988-ci ilin statistikasına görə, rayonda 53 324 hektar kənd təsərrüfatına yararlı torpaq olub. 15 min hektar əkin yeri suvarma suyu ilə təmin edilib. 1976-cı ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Tərtər çayı üzərində Sərsəng su qovşağı tikilib. Bu kompleks həm elektrik enerjisi almaq, həm də suvarma məqsədilə yaradılıb. Anbarda suyun həcmi 560 min kubmetr təşkil edib və ildə 125 milyon kilovat/saat elektrik enerjisi alınıb. Ağdərədə zəngin faydalı qazıntı yataqları olub. Qızılbulaq yatağında 13,6 ton qızıl, 7,9 milyon ton mis ehtiyatı olub. Mehmana kəndi yaxınlığında sənaye ehtiyatları 37,3 milyon ton olan qurğuşun, 40,4 milyon ton sink yataqları, o cümlədən ehtiyatı 100 milyon ton olan Dəmirli mis yatağı, Canyataq, Gülyataq qızıl mədənləri işğalçılar tərəfindən vandallıqla talan edilib. Bundan başqa, sənaye ehtiyatları 38 080 min kubmetr olan Ağdərə, 623 min kubmetr mişar daşı ehtiyatı olan Şorbulaq-1, Şorbulaq-2, 200 min kubmetr gəc yataqları uzun illər ərzində ermənilər tərəfindən qanunsuz olaraq istismar edilib.

İkinci Qarabağ müharibəsindən sonra Ağdərə və digər ərazilərin demilitarizasiyası, Ermənistan qoşunlarının oradan tam çıxarılması və qanunsuz erməni silahlı ünsürlərinin tərk-silah edilməsi mütləq şəkildə labüd idi. Ermənistan tərəfindən üçtərəfli Bəyanatın müddəaları qəsdən pozulur, çağırışlara biganə yanaşılırdı. Məhz bundan sonra ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısını qətiyyətlə almaq üçün 19 sentyabr 2023-cü ildə başlanan lokal xarakterli antiterror tədbirləri çox sarsıdıcı oldu və 23 saatdan sonra separatçılar, Ermənistan ordusunun qalıqları ağ bayraq qaldırdılar. Sentyabrın 24-də Ağdərə işğaldan azad edildi. Qalib Ali Baş Komandan İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Ağdərədə dalğalanan bayrağımız hər bir azərbaycanlıya qürur və iftixar yaşadır. Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli Qanununun tətbiqi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi barədə Fərman imzalayıb və Ağdərə rayonu yenidən təşkil edilir.

Odlar Yurdunun ən qədim yaşayış məskəni hesab olunan Xocalı Ağdam şəhərindən 18 km, Xankəndidən 14 km məsafədə Qarabağ silsiləsinin ətəyində yerləşir. Qızqala və Qırxqız dağları bu qədim yurd yerinin ən uca zirvəsidir. Xocalı ərazisindən Badara və Qarqar çayları keçir. Ərazisində qarağac, fıstıq, cökə, ağcaqayın ağacları ilə zəngin meşə örtüyü olub. Təəssüf ki, xain düşmən işğal illərində həmin meşə zolaqlarını doğrayaraq məhv edib. Xocalı həm də ən qədim memarlıq və ilk mədəniyyət abidələri ilə tarixin ən dərin qatlarını özündə yaşadır. Xocalı yeni və modern bir şəhərə çevrilib. Ərazidə olan kurqan tipli qəbir abidələrin tanıdılması və ictimailəşdirilməsi də nəzərdə tutulub. Müasir şəhər kimi dirçələcək Xocalıda unikal arxeoloji parkın təşkili turizmin inkişafına xidmət edəcək. Qədim abidələri ziyarət edən turistlər həm də yeni tarixin amansız faktı olan Xocalı soyqırımı barədə məlumat alacaqlar. Açıq hava altında muzey kimi fəaliyyət göstərəcək Xocalı arxeoloji parkı yeni formatda təqdim ediləcək, eyni zamanda Qarabağın zəngin tarixi keçmişinin, maddi-mədəni irsinin təbliği və tanıdılması işində ən böyük layihə olacaq. Arxeoloji park sübut edəcək ki, Xocalı təkcə inzibati ərazi deyil, tarixi min illərə söykənən qədim yaşayış məskənidir.

Hazırda işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Xocalı şəhərində Prezident İlham Əliyevin tapşırığı ilə böyük miqyaslı quruculuq-tikinti işləri sürətlə aparılır. Tarixində ilk dəfə olaraq Azərbaycan bütün dünyaya öz gücünü göstərdi, xalqımızın sarsılmaz birliyini, polad kimi əyilməz iradəsini nümayiş etdirdi. Bütün dünya gördü ki, Azərbaycan otuz ilə yaxın erməni işğalından əziyyət çəkməsinə baxmayaraq, bütün haqsızlıqlara, ikili standartlara, təxribatlara mərdliklə sinə gərdi, qələbəyə və şərəfə qadir olduğunu sübut etdi. Xocalı şəhərində indi üçrəngli Bayrağımız dalğalanır. Bu tarixi hadisədən bir neçə gün sonra ermənilər tərəfindən dağıdılan və talan edilən Xocalıda bərpa-quruculuq işlərinə başlanılıb. Xocalı 8 aya ərsəyə gələn möcüzədir, yeni, müasir, modern bir şəhər öz sakinlərinə qucaq açıb. Ağdam-Xankəndi-Şuşa yolunun üzərində yerləşən bu şəhər davamlı inkişaf edən canlı regional mərkəz, strateji yaşayış məntəqəsi rolunu oynayacaq. Beynəlxalq hava limanının mövcudluğu, şəhər ətrafından keçəcək respublika əhəmiyyətli avtomobil və dəmir yolları Xocalını həm işgüzar, həm də turizm məqsədləri üçün təyinat nöqtəsinə çevirəcək. Sənaye, təhsil və mədəniyyət mərkəzlərinə yaxınlığı, zəngin tarixi irsə malik olması isə şəhərin müxtəlif istiqamətlərdə paralel inkişafına töhfə verəcək. Yaralı dağların, qırılan talelərin, məhv edilən arzuların şahidi olan Xocalıda indi şərəf, qürur, iftixar, ləyaqətli qayıdış təntənəsi yaşanır.

**Salman ALIOĞLU,**
**"Respublika".**